**Zəkulla Bayramlı**

*filologiya üzrə fəlsəfə doktoru*

## Sən nə zaman böyüyüb çatdın şəhid yaşına?

Füzuli şəhəri uğrunda döyüşlərdə şəhid olmuş Xəzər Bayramovun unudulmaz xatirəsinə

Torpağa verdik Xəzər kimi oğulu,
Tək adından canımda təlatümlər döğulur,
Dostların, qohumların yoxluğunda boğulur...
Anan salar mehrini soyuq məzar daşına
Sən nə zaman böyüyüb çatdın şəhid yaşına?

Bir nəslin budağından qopdu yaşıl bir yarpaq,
Ruhun bu gündən belə başımızda al bayraq
Ana tək qucağını açdı sənə bu torpaq,
Bizə qaldı əmanət başladığın şanlı yol.
Sən nə zaman böyüyüb çatdın şəhid yaşına?

Şəhidlik mağarını anan çaşıb toy sanır,
Kimisə öz gəlini, səni təzə bəy sanır.
Bir qız da gizli-gizli yollarına boylanar
Ürəyində oxşayar ilk arzu muradını,
Dodağında pıçıldar öz-özünə adını.

Qarabağ qurtulacaq quzğunlar caynağından,
Qartal səsi gələcək qartallar oylağından.
Sən öz canından keçdin, qardaşın ayağından
Qalanlara yar olsun anaların duası
Silinsin qəlbimizdən məğlubiyyət havası.

Rahat uyu, şəhidim, gözun dalda qalmasın,

Bacıların sızlayıb saçlarını yolmasın.

El-obanın içində atan sınıq qalmasın

Bu millətin oğludur bütün şəhid oğullar,

Şəhidliyə and içən neçə igid oğul var.

*Ədalət qəzeti. – 2020. – 05 noyabr.*